# Kamran Məmmədovun bədii yaradıcılığı



Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Kamran Məmmədovu elmi ictimaiyyət daha çox XIX əsr Azərbaycan ədəbiyyatının mötəbər tədqiqatçılarından biri kimi tanıyır. Ancaq bununla belə, o bir çox alim sələfləri Məmməd Cəfər, Hacıbaba Nəzərli, Mikayıl Rəfili, Seyid Hüseyn, Məmməd Arif və öz müasirləri olan Qulu Xəlilov, Nurəddin Babayev kimi müəlliflərlə bərabər bədii yaradıcılıq sahəsində fəaliyyət göstərmişdir. O bədii müstəvidə özünü nəsr janrında ifadə etmişdir. Elmi yardıcılığında Kamran Məmmədov imzası daşıyan alim bədii yaradıcılığını "Kamran Dadaşoğlu" imzası ilə təqdim etmişdir. Bu imza ilə o, üç kitab oxucuların ixtiyarına vermişdir. "Ömrün izi", "Dünyamız uşaq gözündə" adlı hekayələr kitabı və "Yuxusuz illər" xatirə-povesti onun bədii irsinin əsas siyahısını təşkil edir. Göründüyü kimi, kəmiyyətcə bu irs zəngin olmasa da, məzmun-mahiyyətcə kifayət qədər maraqlı və diqqətçəkəndir. O, bədii yaradıcılığa "Zərgül" adlı hekayə ilə gəlmişdir. Hekayəni (04, 1944, s.4) "Ədəbiyyat qəzeti" vasitəsi ilə ədəbi ictimaiyyətə təqdim etmişdir. Hekayədə İkinci Dünya müharibəsi zamanı nişanlısı ön cəbhədə olan gənc bir qızın, Zərgülün çəkdiyi iztirablardan, böyük ümidlə sevdiyi oğlanın, Elmarın müharibədən sağ-salamat qayıdacağından danışılır.Qarşılıqlı yazılan məktublarön cəbhədə olan qəhrəmanlara və onun doğmalarına sabaha doğan günəş kimi təqdim olunur. "Dünyamız uşaq gözündə" adlı hekayələr kitabında müəllif oxucusunu uşaq dünyasına səyahət etdirir. Balaca bədii qəhrəmanlarının vasitəsiləuşaq dünyasının al-əlvan rənglərini, sirli-sehirli aləmini bizə rəsm edir. Kiçik yaşli uşaqlar üçün yazılmış bu hekayələrin qəhrəmanı balaca Nicat və Leyladır. Müəllif bu əsərləri o təkcə yazıçı qələmi ilə deyil, həm də bir ata məhəbbəti ilə yazmışdır. Bəlkə də, elə bu səbəbdəndir ki, onun hekayələrinin aurası daha doğma, daha səmimidir. Hekayələrdə nəinki kiçikyaşlı uşaqlar, hətta böyüklər də Nicatla Leylanın qəhrəman olduğu bu dünyanın sehrinə düşürlər. Müəllif balaca qəhrəmanlarınınvasitəsilə oxucusuna Vətənə, torpağa sevgi, valideyn məhəbbəti, doğmalıqhisslərini aşılayır, təhsilin, mütaliənin əhəmiyyətinə diqqəti yönəldir. Müəllif "Cıdır düzündə" adlı hekayəsində Şuşa şəhərinin əsrarəngiz təbiətini göz önünə gətirməklə yanaşı, insanlarının mehriban, şirindil olmasını bir qoca qarının timsalında çatdırır. Təxminən 48 il bundan əvvəl yazılan bu hekayədə bir neçə il bundan qabaq bizim üçün əlçatmaz olan, bu gün isə sürətli abadlıq işləri aparılantarixi yerlərin adları sadalanır. Hekayənin diqqətdən yayınmayan bir epizodunu vurğulamaq istəyirəm. Şəkilçəkənin dilindən deyilən bir cümlə sanki uzun illər sonra xalqımızın başına gələcək bəlalardan xəbər verir. Cıdır düzündə ailənin şəklini əbədiləşdirən şəkilçəkən deyir: "Nə vaxt gəlirsən gəl, amma mütləq gəl, bu şəkil tarixi şəkil olacaq ha, yadında saxla... bu uşaq çox ağıllı uşağa oxşayır, baxışı da dərindir, mənalıdır.Sözümə yaxşı qulaq as: Uşaq şəkli tarixiləşdirəcək...

Kamran Məmmədovun bədii yaradıcılığında oxucu diqqətini cəlb edən əsas nüanslardan biri dəfərqli fikir və yanaşmalarla müxtəlif sahələrə göstərilən münasibətdir. Yaratdığı obrazlar biri digərini təkrar etmir, bütövlükdə isə harmoniya yaradır. Bir çox hekayələrində müəllif öz tərcümeyi-halını dolayısı ilə oxucusuna danışır.Diqqətli oxucu "Nicat və Arif əmisi", "Dayının oğul arzusu", "Bibi sevgisi", "Baba şəkli", "Şəkər bibi", "Dilruba bibi", "Bacı məhəbbəti" kimi hekayələrdəyazıçının həyatından hansısa lövhələri oxuya bilir.Məlumdur ki, hər bir yazıçının öz koloriti, öz üslubu var bu özünəməxsusluq da,adətən, onu oxucuya sevdirir. Kamran Məmmədovun da bədii yaadıcılığında özünəməxsusluq güclüdür, onun əsərləri oxucu məhəbbətini yalnız bədii qəhrəmanları ilə deyil, həm də bədii koloriti, üslubu ilə qazanr.Bu əsərlərdə müəllif oxucunu ədəbi dilin akademik üslubu ilə yormur, xalq dilinin canlılığı ilə onu öz cazibəsində saxlayır. Kamran Məmmədovun bədii yaradıcılığının əsas ideya-mövzu xətti mənəvi keyfiyyətlər, onların insan həyatında oynadığı roldur.Onun bədii yaradıcılığında həm də torpaq, vətənə sevgi hissləri çox güclüdür. Yazıçıya görə insanın mənəvi keyfiyyətləri onun yurd, vətən sevgisi ilə bütövləşəndə mükəmməl olur. 1976-cı ildə kiril əlifbası ilə çap olunan "Ömrün izi" kitabı yazıçının anadan olmasının 100 illiyi münasibətilə filologiya elmləri doktoru, dosent Leyla Kamran qızı Məmmədova tərəfindən 2022-ci ildə təkrar nəşrə verilmişdir. Kitabda Böyük Vətən müharibəsi zamanı xalqımızın igid oğul və qızlarının göstərdikləri qəhrəmanlıqlar öz əksini tapmışdır. "Bağlı qapı", "Qələbə günü", "Ana", "Cib saatı", "Qızıl üzük" və sairə kimi hekayələrində biz müharibə adlı bəşəri fəlakətin yaratdığı müdhiş mənzərələri seyr edirk. "Bağlı qapı" hekayəsində Böyük Vətən müharibəsinin bitməsindən illər keçsə də oğul yolu gözləyən Qəmər ana övladının itkin düşmə xəbəri ilə barışmaz mövqedədir. Aradan keçən illər ərzində gözləri qapıda, qulağı səsdə olan ananın qızları artıq ailə sahibi olmuşlar. Oğlu Qədirin sağ olmasından ümidini itirməyən ana xəyallarında övladına toy edir, nəvə qucağına alır. Bakıda köhnə məhəllələrin sökülməsindən narahat olan ananın öz evindən köçmək istəməməsinin bir səbəbi var. Oğlu Qədir gələndə onları tapa bilməz. Ana inanırdı ki, oğlu yaşayır, onun igid oğlu ölə bilməz. Bir gün hərbi komissarlığa çağrılan anaya oğlunun ölüm xəbəri verilir. Uzun illər qəlbən oğlunun sağ olduğuna inanan ana ürəyi, həmin gün xəbərin ağırlığına tab gətirmir. Qədir məhəbbəti, Qədir dərdi o gün ananı bərk sarsıdır. "Ay arvad, ay xala, niyə özünü yorursan! Bəyəm sən bilmirsən ki, oğlun Qədir həlak olub?! Qədir ölüb, xala! Çoxdan. Gör neçə il keçir..." ehtiyatsız deyilən bir neçə cümlə ananın ölümünə səbəb olur. Yazıçı hekayədə "bağlı qalan qapı"ların müqəssiri olan müharibənin verdiyi acıları, ağrıları insan hislərinin ən həssas məqamlarını incələyərək təsvir edir.

"Yuxusuz illər" xatirə-povestində müəllif müharibənin canlı mənzərələrini yaradıb. Yazıçının bu hadisələrin birbaşa iştirakçısı olması isə yaranan mənzərələrə xüsusi rəng verir. Çünki nəql olunanlar yalnız yazıçı təxəyyülündən yarananlar deyil, həm də birbaşa görüb iştirak etdiyi gerçəkliklərdir. Kamran Məmmədov XX əsrin ən böyük tarixi hadisəsi olan İkinci Dünya müharibəsinin iştirakçısına çevrilmək statusunu dövlətin onun qarşısına qoyduğu hərbi mükəlləfiyyət kimi yox, vətəni qorumaq işinə könüllü qatılan bir gənc kimi qazanmışdır. Ona görə də Kamran Məmmədovun bu əsəri XXI əsrin Azərbaycan tarixinin ən böyük hadisəsi olan İkinci Qarabağ müharibəsinin yaşayan bizlər üçün daha maraqlıdır. Çunki müharibənin hansı əsrdə, hansı ildə və yaxud harada baş verməsindən aslı olmayaraq qanunları eynidir. Qırğın, ölüm, yarımçıq qalmış talelər, gözyaşları, yeri dolmayacaq itkilər, müharibə bəşəriyyətə min illər əvvəl də, bu gu də bunu verir, sabah da bunu verəcək. Kamran Məmmədov bu əsərində məhz müharibənin bəşəriyyətə yaşatdığı bu acıları bir yazıçı qələmi ilə rəsm etməyə çalışıb. Əsərin baş qəhrəmanı Firidun elə yazıçının prototipidir. Təhsilini yarımçıq qoyub müharibəyə gedən qəhrəman bir çox azərbaycanlı gənclərin sırasındadır. Bu gənclər qələbəyə inanır, onun yolunda canlarından keçməyə hər an hazır olduqlarını əməlləri ilə sərgiləyirlər. "Yuxusuz illər" xatirə-povesti bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki müharibə və onun bəlaları bu günümüzün də acı reallığıdır.Kamran Məmmədovun bədii yaradıcılığı onun elmi yaradıcılığı qədər zəngin, peşəkar olmasa da üzərində dayanılmağa, haqqında söz deyilməyə layiqdir. Ona görə də fkrimizcə onun bədii əsərlərinin, xüsusilə də uşaq hekayələrinin təkrar və çoxtirajlı çapa ehtiyacı vardır.



***Əsmər HÜSEYNOVA,***
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,***
***Ədəbi tənqid şöbəsi,***
***böyük elmi işçi.***